535:1.QXD 25.06.2023 19:51 Page 1


# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 23 (535) 17 - 23 İyun, Hezîran sal. il 2023
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
**Rojnama heftename civakî û sîyasî**

Qiyməti: / Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

## Prezident İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib



Səh. 8

## Kürd imperatorluqları



Səh. 2

## Serok Nêçîrvan Barzanî diçe Almanyayê



Səh. 4-5

### Simko inqilabının Kürdüstan və Azərbaycan tarixində önəmi və rolu



Səh. 11

### Mesrûr Barzanî: Av çavkaniyek aborî û niştimanî ya gelek girîng û binirx e



Səh. 13

### Eger dewleta we tune be, hûn nikarin goristanekê jî biparêzin



Səh. 12

### Xiyaneta li Kerkukê li Sileymaniyeyê dubare dibe...

## Prezident İlham Əliyev OPEC-in baş katibini qəbul edib Səh. 2

## XVI və XVII əsrdə yaşamış olan məşhur kürd alim, şair, ədəbiyyatçı və Sufi melayê Cıziri Səh. 9

## Daha 15 məcburi köçkün ailəsi yola salındı Səh. 3

## Daxuyaniya civîna Serokwezîrê Herêma Kurdistanê û Serokomarê Səh. 10

## “Kürdüstan Bölgəsi ilə Azərbaycan Respublikası arasında əlaqələr yaradılmalıdır” Səh. 6-7

## Petrola Kurdistanê - Bexda û Engerê li hev nekirin, Barzanî û Erdogan civiyan Səh. 11



Səh. 12

### Em bi dîplomasîyek serkeftî gihîştin van rojan



Səh. 20

### Министр: В Курдистане нет политзаключенных



Səh. 18

### Экс-лидер прокурдской партии Турции сожалеет о решении поддержать Кылычдароглу на выборах



Səh. 10

### Konsula Brîtanyayê: Herêma Kurdistanê di beşdariya jinan a siyasetê de di asteke nuwaze de ye

535:1.QXD 25.06.2023 19:51 Page 2



# Prezident İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib




İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki abidəsi önünə gül dəstələri düzdü, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad etdi.

Sonra Prezident İlham Əliyev şəxsi heyətin atış vərdişlərini təkmilləşdirməsi üçün təyin olunmuş qapalı atış şəhərciyinə baxdı. Məruzə olundu ki, burada tapança, pnevmatik silah və kiçikçaplı tüfənglərdən atəş açmaq üçün nəzərdə tutulmuş 25 metr uzunluğunda iki atış zolağı, həmçinin atışın nəticələri əks olunan monitor mövcuddur.

Dövlətimizin başçısı komandoların fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi üçün zəruri trenajor və digər idman avadanlıqları ilə təchiz olunmuş qapalı idman zalına gələrək buradakı şəraitlə maraqlandı.

Hərbi hissədəki açıq idman şəhərciyində isə güc məşğələlərinin icrası üçün avadanlıqlar, dözümlülüyün artırılması məqsədilə maneələr zolağı, eləcə də futbol, voleybol, uzunluğa və hündürlüyə tullanma meydançaları yaradılıb. Ali Baş Komandan burada komandoların intensiv hazırlıq məşqlərini izlədi.

Sonra Ali Baş Komandan əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu, oradakı silah otağı, əşya anbarı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı üçün ideoloji iş və digər inzibati otaqlara baxdı. Silah otağında Prezident İlham Əliyevə əksəriyyəti Azərbaycan istehsalı olan silah nümunələrinin taktiki-texniki xüsusiyyətləri barədə məlumat verildi.

Əşya anbarında nümayiş etdirilən müxtəlif hərbi geyim formaları arasında Azərbaycan Ordusunda yeni tətbiq olunacaq səhra geyim forması da təqdim edildi.

Sonra dövlətimizin başçısı hərbi hissənin sıra meydanına gəldi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə hərbi hissəyə Döyüş bayrağının təqdim edilməsi mərasiminə hazırlıq barədə məruzə olundu.

Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

# Prezident İlham Əliyev OPEC-in baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı qəbul edib.

Haysam Əl-Qays, ilk növbədə, Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, Şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şahzadə Əbdül Əziz bin Salman Əl-Səuda çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi. Baş katib vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan OPEC+ formatı yaranan ilk gündən bu əməkdaşlığa böyük töhfə verir və o, buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Eyni zamanda, bu gün qlobal neft bazarında OPEC+ formatında fəaliyyətin roluna toxunuldu, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğu xüsusi qeyd edildi.

Söhbət zamanı bu gün "fossil" yanacaqlar sahəsində mövcud olan məsələlər müzakirə edildi, gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının vacibliyi bildirildi. Dünya iqtisadiyyatının artması nəticəsində ümumilikdə enerjiyə çoxalan tələbat nəzərə alınaraq, bu sahəyə son zamanlarda investisiyaların azaldılmasının müəyyən narahatlıq doğurduğu qeyd olundu.

Görüşdə dünyada yaşıl enerji sahəsində əldə edilən irəliləyişlərlə bərabər, ənənəvi yanacağın oynadığı vacib rol vurğulandı. Ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması baxımından yeni texnologiyaların tətbiqinin xüsusi əhəmiyyət daşıdığı bildirildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Serok Nêçîrvan Barzanî diçe Almanyayê

Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî ji bo pêkanîna çend peywendîyên fermî diçe Almanyayê.

Biryar e di 26ê Hezîranê de biçe



paytext Berlînê û tê pêşbînîkirin ku Serok Nêçîrvan Barzanî ligel Serokwezîrê Almanyayê Olaf Scholz bicive.

Cîgira Berdevka Hikûmeta Almanyayê Christiane Hoffmann li Hewlêrê bi Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî re hevdîtin pêk anî û bersiva pirsên rojnamevanan da. Hoffmann, di hevdîtina xwe ya bi Scholz û Barzanî re got ku "Peywendîyên Kerêma Kurdistanê û Almanyayê, pêşhatên herêmê û pirsên berjewendîyên hevbeş ên herdu welatan wê bên rojevê".

Rayedara hikûmeta Almanyayê diyar kir ku piştî hevdîtina her du rêberan wê ti daxuyanîyek çapemenîyê neyê dan. Ev çend sal in di navbera Herêma Kurdistanê û Almanyayê de pêwendîyên bihêz hene. Bi taybet di dema êrişên DAIŞê de, hikûmeta Almanyayê di şerê li dijî DAIŞê de û derbarê koçberan de alîkariyên leşkerî û mirovî pêşkêşî Herêma Kurdistanê kirin.

Almanya ku li dijî êrişên DAIŞê mûşekên MILAN dida Hêzên Pêşmerge, ji sala 2014ê ve jî gelek piştgirî, bi taybet alîkarîya perwerde û şêwirmendîyê da Hêzên Pêşmerge. Heta sala 2016ê 160 serbazên Almanya li Iraq û Herêma Kurdistanê kar dikirin. *rojevakurd.com*

# Şanda Amerîkayê: Em piştevaniya Herêma Kurdistanê û Hêzên Pêşmerge dikin



Cîgira Alîkarê Wezîrê Berevaniyê yê Amerîkayê bo Karûbarên Rojhilata Navîn û Fermandarê Giştî ya Hêzên Hevpeymanan li Iraq û Sûriyê, piştevaniya welatê xwe ji bo Herêma Kurdistanê û hêzên Pêşmerge dubare kirin. Îro Çarşema 21ê Hezîrana 2023an, Serokwezîrê Herêma Kurdistanê Mesrûr Barzanî pêşwazî li şandeke Amerîkî kir bi serokatiya Alîkarê Wezîrê Berevaniyê yê Amerîkayê bo Karûbarên Rojhilata Navîn Dana Stroul. Di civînê de ku Fermandarê Giştî yê Hêzên Hevpeymanan li Iraq û Sûriyê General Matthew McFarlane amade bû, Cîgira Alîkarê Wezîrê Berevaniyê yê Amerîkayê, silav û rêzên Wezîrê Berevaniyê yê Amerîkayê ji Serokwezîr Mesrûr Barzanî re gihand û piştevaniya welatê xwe ji bo Herêma Kurdistanê û hêzên Pêşmerge dubare kir.

Mijara sereke ya civînê, gotûbêjkirina li ser pêşveçûnên çaksaziyên Wezareta Pêşmerge û pêngav û rêkarên cîbicîkirina yadaşta hevtêgihiştina navbera Wezareta Pêşmerge û Wezareta Berevaniyê ya Amerîkayê bû. Li ser vê mijarê, Cîgira Alîkarê Wezîrê Berevaniyê yê Amerîkayê destnîşan kir ku Amerîka û Hevpeymaniya Navdewletî, berdewam dibin di piştgirîkirina hêzên Pêşmerge de ji bo rûbirûbûna gefên terorê, bi taybetî DAIŞê, ji bo dilniyabûna ji dubare bihêznebûna wê rêxistina terorê.

Ji aliyê xwe ve, Serokwezîrê Herêma Kurdistanê spas û pêzanînên Herêma Kurdistanê bo piştgiriyên Amerîkayê nîşan da û xwasta Herêma Kurdistanê jî ji bo pêşvebirina pêwendiyên herdu aliyan ligel Amerîkayê dubare kir. Rewşa navçeyên Kurdistanî yên li derveyî Herêma Kurdistanê û bidawîanîna pêla dagirkirina zeviyê cotkarên Kurd û Tirkmen li sînorê Kerkûkê, beşeke din a civînê bû. *KDP.info*

# "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi uğurla başa çatıb




Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihədə iştirak etmiş arıçılıq təsərrüfatı sahiblərinin təltifolunma mərasimi keçirilib.

Tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, İqtisadiyyat nazirinin müşaviri Niyazi Səfərov, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlığın təşkili və monitorinqi şöbəsinin müdiri Bayandur Rzayev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Gəncə-Daşkəsən Regional Məşğulluq filialının müdiri Elməddin Qurbanov və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edən "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov rəhbərlik etdiyi dövlət şirkətinin 2016-cı ildən etibarən dağ-mədən sahəsində mütərəqqi beynəlxalq təcrübə və standartlar əsasında fəaliyyətini təşkil edərək, ölkəmizin qeyri-neft-qaz sektorunun inkişafına öz töhfələrini verdiyini diqqətə çatdırıb. Əldə olunan bu yüksək iqtisadi nailiyyətlər fonunda, "AzerGold" QSC-nin fəaliyyətinin əsas prinsiplərini təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətliliyin təşkil etdiyini vurğulayıb. "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi barədə ətraflı məlumat verən Zakir İbrahimov layihənin realizə olunmasında əsas məqsədin rayonda kiçik sahibkarlığın inkişafı etdirilməsinə, arıçılığın təşviqi və təbii bal istehsalının artırılmasına və sosialyönümlü dövlət siyasətinə əlavə töhfə vermək olduğunu bildirib.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov arıçılığın inkişafı üçün böyük potensiala malik olan Daşkəsən rayonunda icra edilən layihənin bölgə üçün mühüm sosial-iqtisadi təşəbbüs olduğunu qeyd edib. O, yaradılmış imkanlardan düzgün faydalanan arıçı fermerlərin təsərrüfat fəaliyyətlərində bunun müsbət nəticələrini görəcəyinə, öz təsərrüfatlarını daha da genişləndirməyə nail olacaqlarına əminliyini vurğulayıb.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev çıxışında deyib:

- Artıq ikinci ildir ki, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə Daşkəsən rayonunda "Arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi uğurla icra olunmuşdur. Bildiyiniz kimi, Daşkəsən rayonu arıçılığın qədim mərkəzlərindədir. Bu sahə qədim zamanlardan daşkəsənlilərin təsərrüfat həyatında və məişətində əhəmiyyətli yer tutmuşdur. Daşkəsən rayonunun relyefi, bitki örtüyü burada kənd təsərrüfatının ayrı-ayrı sahələri ilə yanaşı, arıçılığın da inkişafına geniş imkanlar açır. Mütəxəssislər tərəfindən "Qızıl Arı" adlandırılan Qabaqtəpə arısı Daşkəsən rayonunun Qabaqtəpə kəndi ətrafında formalaşdığı üçün Qabaqtəpə arısı adlandırılmışdır.

Sel sularının və intensiv dolu yağışlarının rayonumuzda arıçılıq təsərrüfatlarına da ciddi ziyan vurmasına və bu sahənin inkişafına mənfi təsir göstərməsinə baxmayaraq, boz dağ arısının əvvəlki şöhrətini qaytarmaq, arıçılıq ənənəsini yaşatmaq üçün Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən son illər bir sıra təsirli tədbirlər həyata keçirilmiş və müsbət nəticələr əldə edilmişdir.

Bu gün yekun mərasimini birlikdə qeyd etdiyimiz "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi də həmin tədbirlərin bir hissəsidir. Layihə çərçivəsində daşkəsənli fermerlərə arıçılığa dair təlimlər keçirilmiş, onlara arı ailələri və dərman preparatları verilmiş, həmçinin bu məqsədlə rayon ərazisində nektar verən ağaclar əkilmişdir.

Rayonumuzda uğurla həyata keçirilən növbəti "Arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi də rayon ictimaiyyəti tərəfindən minnətdarlıqla qarşılanmışdır.

Daşkəsən rayonunda ekoloji tarazlığın qorunmasına, habelə yerli arıçı fermerlərə göstərdiyiniz diqqət və qayğıya, yeni iş yerlərinin yaradılmasına və verilən maddi dəstəyə görə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri hörmətli Orxan Məmmədova, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin idarə heyətinin sədri Zakir İbrahimova və bu işdə zəhməti, əməyi olan hər bir kəsə dərin təşəkkürümü bildirirəm.

Tədbirdə daha sonra İqtisadiyyat, Kənd Təsərrüfatı və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin nümayəndələri çıxış edərək, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının məqsəd və hədəflərinə uyğun olaraq, "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsinin Daşkəsəndə arıçılığın dayanıqlı biznes fəaliyyəti kimi təşviqi baxımından yüksək qiymətləndirdiklərini bildiriblər.

Tədbirin sonunda təlim və praktiki məşğələləri uğurla tamamlayan arıçı fermerlər sertifikatlarla təltif ediliblər. Həmçinin, layihə çərçivəsində arıçılara təqdim edilən aktivlər, o cümlədən zəruri mal və materiallarla tam təchiz edilmiş arı yeşikləri və balsüzən dəzgahlara baxış keçirilib.

Qeyd edək ki, "Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək" layihəsi artıq ikinci ildir ki, həyata keçirilir. Layihədə "AzerGold" QSC-nin hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi "Çovdar" qızıl mədənin yaxınlığında yerləşən kənd və digər yaşayış məntəqələrinin sakinləri iştirak ediblər. İlk dəfə 2022-ci ildə icra edilən layihədən Daşkəsən rayonunun Çovdar, Bayan, Quşçu və Zəylik kəndlərində fəaliyyət göstərən, ümumilikdə 24 nəfər arıçı fermer faydalanıb. Builki layihədə isə Çovdar, Bayan, Quşçu kəndləri, eləcə də Şadax adlanan ərazidə yaşayan 32 nəfər fermer iştirak edib.

# Tərtərdə Qurban bayramı ilə əlaqədar kəsim məntəqəsində monitorinq aparılıb

Qurban bayramı günlərində qurbanlıq heyvan kəsimi və satışının müvafiq norma və qaydalara uyğun, rahat həyata keçirilməsi, qeyri-qanuni yerlərdə heyvan satışı və ət kəsiminin qarşısının alınması və digər məsələlərlə bağlı Tərtər Rayon İcra Hakimiyyətində müvafiq qurumların əməkdaşlarından ibarət işçi qrupu yaradılıb.



Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov işçi qrupunun üzvləri ilə birlikdə qurbanlıq heyvanların kəsiminin təşkil ediləcəyi Tərtər şəhəri, Cavanşir küçəsi 84 ünvanında yerləşən ət kəsim məntəqəsində olub, əlaqədar şəxslərə müvafiq tövsiyyə və tapşırıqlarını verib.

Həmçinin Gigiyena və Epidemiologiya Mərkəzinin işçiləri tərəfindən ət kəsim məntəqəsinin döşəmə və divarları, habelə burada istifadə edilən avadanlıqlar xüsusi məhlulla dezinfeksiya edilib.

Bununla yanaşı, Qurban bayramı günlərində heyvan mənşəli tullantıların vaxtında daşınması, ət kəsimi məntəqəsinin ətrafında təmizliyə riayət olunması üçün Tərtər şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin əməkdaşları da gücləndirilmiş iş rejimində çalışacaqlar.

# Daha 15 məcburi köçkün ailəsi yola salındı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərə davamlı səfərləri, ərazidə aparılan yenidənqurma və bərpa işlərini şəxsən nəzarətdə saxlaması bütün köçkünlər kimi laçınlılar tərəfindən də minnətdarlıq hissi ilə qarşılanır.



Əraziləri işğaldan azad olunmuş rayon sakinlərinin öz əzəli yurdlarına Böyük Qayıdışını təmin edəcək Dövlət Proqramına əsasən 2023-cü ildə Laçın şəhərinə 700 ailənin, rayonun Zabux və Sus kəndlərinə isə 800-dən çox sakinin köçürülməsi nəzərdə tutulmuşdur. Bu baxımdan sakinlərin mənzilləri müasir dizaynla tikilərək yenidən bərpa edilmiş, ərazidə müasir tələblərə cavab verən infrastruktur yaradılmışdır. 2023-cü il 25 iyun tarixdə isə səhər saatlarında Laçın şəhərinə qayıdış çərçivəsində 4-cü mərhələdə Laçın şəhərindən olan daha 13 ailə 46 nəfər məcburi köçkün Laçın rayon rəhbərliyinin xeyir-duası ilə Bakı şəhərindən, 1 ailə 2 nəfər Şirvan şəhərindən, 1 ailə 5 nəfər isə Ağcabədi rayonun Taxta Körpü qəsəbəsindən Laçın şəhərinə yola salındı. Vətənə qayıdışın sevincini yaşayan laçınlılar işğal altında olan torpaqlarımızı qısa müddətdə işğaldan azad edərək, dövlətimizin ərazi bütövlüyünü bərpa etməklə onların öz ata-baba yurdlarına qayıtmasına şərait yaratdığına görə Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə sonsuz təşəkkürlərini və minnətdarlıqlarını bildirirlər.

# Niyazi Bayramov Qurban Bayramı günlərində heyvanların satış və kəsim məntəqələrində yaradılan şəraitlə yerində tanış olub



Ölkədə Qurban Bayramı qeyd olunacaq. Respublikanın bütün bölgələrində olduğu kimi, Gəncə şəhərində də qurbanlıq heyvan kəsimi və satışının müvafiq norma və qaydalara uyğun, o cümlədən rahat həyata keçirilməsi məqsədilə məntəqələr yaradılıb. Belə ki, şəhərin "Kəpəz-Bazarı" ASC-də, "İmamzadə" Dini Kompleksinin qurbangahında, M. Bağırov və Bayan küçələrinin ərazisində qurbanlıq heyvanların satışı və kəsimi məntəqələri təşkil olunacaq.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov sözügedən məntəqələrə baxış keçirib, burada yaradılan şəraitlə yerində tanış olub. Şəhər rəhbərinə məlumat verilib ki, satış və kəsim məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə İslam qaydası əsasında kəsilmiş qurbanlıq heyvanlar əhaliyə təqdim olunacaq. Bununla yanaşı, o da bildirilib ki, ətraf ərazilərin çirklənməsinin qarşısının alınmasına məqsədilə kəsim zamanı heyvanın qanı və digər axıntıların kanalizasiya vasitəsilə kənarlaşdırılması üçün məntəqələrin döşəməsi drenaj sistemi ilə təmin edilib. Məntəqələrdə tullantıların daşınması üçün nəzərdə tutulan xüsusi konteynerlər də yerləşdirilib.

Niyazi Bayramov görülən işlərlə yerində tanış olduqdan sonra aidiyyəti üzrə tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, sakinlər Qurban Bayramı günlərində saat 08:00-dan 20:00-dək qurbanlıq heyvanları satmaq, almaq və ya kəsdirmək üçün qeyd olunan ünvanlara yaxınlaşa bilərlər.

535:1.QXD 25.06.2023 19:51 Page 4



# SİMİKO İNQİLABININ KÜRDÜSTAN VƏ AZƏRBAYCAN TARİXİNDƏ ÖNƏMİ VƏ ROLU

## İran Hökumətinin xaincəsinə öldürtdüyü İsmayıl Ağa Sımkonun ölümündən 93 il keçdi.

1880-ci ildə böyük inqilabi hərakata başlayan Şeyx Ubeydulla inqilabının yatırılmasından sonra İran Kürdüstanında, əşirət rəisi və dərə-



bəylərinin rəhbərliyində siyasi və milli məqsədlərlə başlayan hərəkat demək olar ki, sona yetdi. Kəlbağı, Cuanruyi kimi əşirətlərin ağır vergi ödəmələri səbəbindən zaman-zaman baş qaldırdıqları üsyanlar gerçəkdə milli məqsədlərdən və yurdsevər bir anlayışdan baş qaldırmışdı.

Muzafferuddin şah zamanında İran hər baxımdan ağır çətinliklərlə üz-üzə qaldı. Ölkənin gəlir və zənginlik qaynaqları iflasa uğradı. Hər əşirət rəisi özünün bölgəsinə müstəqil hökumət kimi baxırdı. İran Kürdüstanında Səlmas (Şapur), Urmiya (Rzaiyə) və ətrafının ən böyük kürd əşirəti olan Şıkakilər hökumətə tabe olmurdu. Sımko, bütün Şıkaki əşirətinin rəisi olub, Avdoyu boyuna mənsub idi. Sımko olduğu əraziyə hər baxımdan sahib olmuş, dövlətin buradakı hökmünə son vermişdi.

1905-ci ildə Muzafərrudin şahın avropa səyahətinə çıxdığı bir vaxt Nizamül-Səltənə adlı bir əsilzadə Azərbaycana vali olaraq göndərildi. Nizamül-Səltənə, Şıkaki əşirətini dövlətə boyun əydirmək istəyirdi. Amma bunun Şıkak əşirət rəisi Məhmət ağaya müharibə ilə qalib gələcəyinə inanmırdı. İkiüzlü sümürgəci bütün düşmənlər kimi o da müxtəlif planlar, hiylələr hazırlamağa başladı.

Özlərinə pislik etməyəcəyini və işbirliyi görəcəyini söyləyərək rəsmi bir dövlətlə Məhməd ağanın oğlu Cəfər ağanı Təbrizə dəvət etdi. Yaxşı niyyətli və Qurana inamı olan Cəfər ağa dayısı Mirzə və altı qoruyucusu ilə birlikdə Təbrizə gedir və ilk öncə yaxşı qarşılanır.

O vaxtlar Qafqazlarda ermənilər rus havadarlarının köməyi ilə Türkiyə, İrəvan və Azərbaycanın müxtəlif bölgələrində və eləcə də Şaumyanın və Mikoyanın planları əsasında Bakıda Azərbaycanlıların soyqırımına başlamışdılar. Onların planlarına görə, bu günki işğal olunmuş ərazilər, Zəngəzur, Naxçıvan, Gəncə, Qazax, Tovuz, bir sözlə, Kürə qədər olan ərazilər, Bakı və Bakı ətrafı ərazilər onlar tərəfindən soyqırım aparılaraq işğal olunmalıydı.

Nizamül-Səltənə 1915-ci ildə Türkiyədə kürdlər tərəfindən burunları ovularaq geri qayıdan ermənilərin asayişi pozmalarının qarşısını almağa və xalqın güvənliyini saxlamaq işini Cəfər ağaya həvalə etmək istədiyini bildirir. Əl altından isə onu öldürməyin planını hazırlayırdı. Məsələ ilə bağlı planı həyata keçirməkdən ötrü bura gəlişinin ertəsi günü Cəfər ağa Nizamül-Səltənə ilə görüşmək məqsədilə valiyə aid olan qonaq evinə göndərilir. Ancaq onun öldürülməsi üçün qonaq evinin çevrəsinə tapşırıqla lazımi pusqular qurulmuş, silahlı adamlar uyğun yerlərdə yerləşdirilmişdi.

Cəfər ağa hər şeydən xəbərsiz qonaq evinə gəlir və Qaracadağlı Məhməd Hüseyn xan Zərhami və adamları tərəfindən yaylım atəşinə tutularaq öldürülür. Cəfər ağanın adamları silah səsinə hadisə yerinə gəlirlər. Cəsədin aparılmasının qeyri-mümkün olduğunu görüb canlarını qurtarmaq üçün vuruşurlar və iki ölü verərək Uruğ kəndində düşmənlə qarşı-qarşıya gəlirlər. Bu beş kürd qəhrəmanı çətin bir döyüş sonunda bir neçə əsgər öldürərək onların atlarına minir və Kürdüstana dönməyi bacarırlar.

Cəfər ağanın bu şəkildə tələyə salınıb öldürülməsi Məhməd ağa və oğlu İsmayıl ağa Sımkonu dərindən hiddətləndirdi. Bunun sonucu İran dövlətinə qarşı mübarizə aparmaq, İran hökumətinin Kürdüstanın bu bölgəsindəki hökmranlığına son verib öz idarəçiliyinə keçirmək qərarına gəlir.

İsmayıl ağa Sımko başqa siyasətçilər kimi istək və arzularını gerçəkləşdirmək üçün bir-birlərinə düşmən olan Türk və İran dövlətləri arasındakı münaqişədən yararlanmışdır. O vaxtlar Osmanlı-İran sərhədlərini müəyyənləşdirmək üçün təyin edilmiş komissiya fəaliyyət göstərirdi. BMT-nin qərarına görə, Qotol (Qopur) dərəsi və ətrafı İranda, Şıkak əşirətlərinin hakimiyyəti altında olan ərazini Osmanlı dövləti qəbul etmək istəmirdi. Sımko bu anlaşılmamazlıqdan yararlanaraq o ərazilərə əl qoyub öz hökmü altına aldı və dövlət elan etdi.

### İsmayıl ağanı öldürmək planları

Sımko İran dövləti qarşısındakı mövqeyini bildirdikdən sonra silahlı qüvvə toplamaqla, bölgə üzərindəki hökmranlığını göstərdi.

Azərbaycan valisi Mükərrəmül-Məlik Sımko ilə müharibə etməyin çıxış yolu olmadığı düşüncəsiylə onu xaincəsinə öldürmə planlarını hazırlamağa başladı. Bir bombanı şirniyat qutusu həcmində hazırlayaraq Xoydan xüsusi olaraq İsmayıl ağa adına göndərir. Hadisəni İsmayıl ağa belə nəql edir:

"Həyətdə oturmuşdum. Uşaqlar bir şirni qutusu gətirdilər. Nənələrinin onlar üçün göndərdiyini güman edərək həmən içinə baxmaq istəyirlər. O anda Heydər Əroğluna Nizamül-Şucadan bir şirni qutusu göndərildiyini və açdıqda partlayışdan öldüyünü eşitmişdim. Bir şübhə düşdü içimə. Uzağa götürün dedim. Uzaqlaşdırılarkən bir aydınlıq göründü gözümə. O saat oğlumu qucağıma alaraq özümü yerə atdım. Bomba partladı. Mən qurtuldum, ancaq qardaşım Əli və bir neçə adam öldü".

Mükərrəmül-Məlikin bu namərdliyinə görə, 1919-cu ildə İsmayıl ağa Sımko çalışmalarını daha gücləndirərək bölgəni dövlətin əlindən alır və öz hökmü altına salaraq daha da gücləndirdi. Təbriz-Urmiya yolunu tutub, gediş-gəlişi kəsdi. Hökumət yalnız Urmiya gölü üzərindən bölgə ilə əlaqə saxlaya bilirdi.

### Erməni-Assuri ordusunun rəhbəri Mar Şəmunun Sımko tərəfindən öldürülməsi

I Dünya Müharibəsi və Türkiyədə ermənilərin Rus-İngilis-Alman-Yunan havadarları tərəfindən bir erməni dövlətinin qurulması planı üzrə ermənilər kütləvi qırğınlar törətdilər, bir milyondan artıq insanı qətlə yetirdilər. Bundan sonra 25 minlik rus-erməni-assuri ordusu İran ərazisinə keçərək Səlmas, Urmiya və Xoy ətrafında yerləşdilər. Bunlar rus-türk müharibəsi zamanı Çar Rusiyası tərəfindən silahlandırılmışdılar. Amerikalı ermeni milyonerlər də onlara arxa dururdular. Başqa bir tərəfdən onların ingilislərlə də əlaqələri vardı. Bu dövlətlər Səlmas, Urmiya və Həkkari arasında qalan ərazidə Erməni-Assuri dövləti qurmaq istəyirdilər. Hətta, Rusiya və İngiltərə kimi iki böyük dövlətin də bu planda barmaqları vardı. Məqsədləri Səlmas, Urmiya bölgəsi ilə Həkkari sərhəddi arasında özlərinə bağlı və Türkiyəyə qarşı bir dövlət qurmaq, sonra isə Van və Həkkarini də bu əraziyə qatmaq istəyirdilər. Bu hədəfə çatmaq məqsədiylə yüksək ingilis nümayəndəsi, assuri, erməni və kürd xalqları arasında bir birlik yaratmaq istəyirdi. Ancaq kürdləri belə bir plana razı salmadan erməni-assuri dövləti qurmaq ideyasını gerçəkləşdirə bilməyəcəklərini yaxşı bilirdilər.

Türkiyədən qovulmuş ermənilərlə assurilər Urmiya və Təbrizə tərəf qaçdıqları zaman qırğına və talana girişdilər. Yerli əhaliinin qırılanı qırıldı, qalanı isə canlarını qurtararaq içərilərə köçməyə baş-



ladılar. Assurilərin rəhbəri Mar Şəmun, qərargahını Səlmas yaxınlığındakı Xosrov ağa qəsəbəsində qurdu və 25 minlik ordu ilə bölgədə ağalıq etmək fikrinə düşdü.

Ermənilərin və assurilərin bu bölgədə yerləşməsi Sımko ağanı narahat etməyə başladı. O, əl altından Azərbaycan bəylərindən, ağalarından kömək istədi.Lakin Sımko ağa bölgədə müstəqillik əldə etdiyindən şah Azərbaycandan ehtiyat edərək böyük bir gücü Azərbaycanda saxlayırdı. Davamı səh. 5-də

535:1.QXD 25.06.2023 19:51 Page 5



# SİMİKO İNQİLABININ KÜRDÜSTAN VƏ AZƏRBAYCAN TARİXİNDƏ ÖNƏMİ VƏ ROLU



Assuri lideri Mar Şəmun

Şeyx Ubeydulla, İsmayıl ağa hərakatı şahın gözünü qorxutmuşdur. Neçə illəridi ki, Kürdüstanda ağalar baş qaldırmış və özlərini müstəqil elan etmişdilər. Lakin rusların, ingilislərin, ermənilərin Amerikadakı havadarları və İran, Türkiyə dövlətləri imkan vermirdilər ki, dünya dövlətləri Kürdüstanı tanısınlar.

Ona görə İran şahı erməni və assurilərin rus və ingilis havadarlarının Kürdüstan və Azərbaycanda yerləşməsinə göz yumurdu. Ona görə ki, əsrlərdən bəri Kürdüstan inqilablar ocağı olmuşdur. İstər İran, istərsə də Türkiyə parçalanmış Kürdüstanın gücünü, birliyini dağıtmaq üçün həmin ərazilərdə ermənilərlə assurilərin yerləşməsinə göz yumurdular. Ancaq onlar düşünmürdülər ki, belə bir dövlətin qurulmasının aqibəti necə olacaqdır.

A. Kəsrəvi "İran Məşrutiyyət Tarixi" adlı kitabında bunları yazır:

"Erməni və Assuri ordusu Urmiya şəhərini asanca ələ keçirdi. Mar Şəmun bir qrup assuri və erməni ilə birlikdə Səlmasa doğru hərəkət etdi. Mar Şəmun İsmayıl ağanı yanıltmaq istəyirdi. İsmayıl ağaya xəbər göndərərək onunla bir yerdə görüşmələrini arzu etdiyini bildirdi. 1918-ci ilin fevral ayında Konəşarda görüşməyi qərara aldılar.

Mar Şəmun yanına silahlı 140 süvari və seçkin adamlar alaraq bir faytona minir və şərtləşdikləri gündə görüş yeri olan Konəşara gəldi".

Təqdimatçı və tarixçi yazar Ələddin Secadi "Kürd inqilabları(başqaldırılarında)" kitabında göstərir ki, çar Rusiyası, bu ölkədə bolşeviklərə qarşı əngəllər etmək istəyirdi. Bunun üçün üsyanlar ölkəsi olan Kürdüstanın bu bölgəsində yaşayan kürdlərin, ələlxüsus İsmayıl ağanın səsini söndürmək fikrindəydilər. Ruslar Mar Şəmunla danışıqlar apararaq bir anlaşma əldə etdilər: "Bu məmləkətdə İsmayıl ağa var. O, həm çarın, həm də Mar Şəmunun önündə bir əngəldir dedilər. Başlanğıcda kürdlərlə ermənilərin birlikdə bir hökumət qurmalarını əldə etmək məqsədilə Sımko ağa ilə görüşmələr etdilər. Ancaq həqiqətdə Sımkonu və kürdləri aradan çıxararaq doğrudan doğruya bir erməni və assuri dövləti qurmaq istəyirdilər".

Bu həqiqətə çox bənzəyirdi. Çünki, yuxarıda qeyd etdiyimiz kimi Mar Şəmunun təlimli 25 min silahlısı varidi. Bunlar əsgəri ordunun komandası altında idi. Arxasında ingilislər və Rus çarının hər cür dəstəyi vardı.

**I Dünya Müharibəsinin sonunda ölkədə olan şərait və durum**

İsmayıl ağanın qüvvələri isə nə o dərəcədə təlimli, nə də dissiplinə sahib idi. Təməldə əşirət qüvvələri birliyi idi. Ayrıca, ona arxa çıxıb silah və cəbhəxana baxımından yardım verən hər hansı bir dövlət də yox idi. Belə olunca Sımkonun ortadan qaldırılması ermənilər üçün bir içim su kimi asan olacaqdı.

İsmayıl ağa Sımko yaxşı bilirdi ki, erməni və assurilər Türkiyədə kürd bəy və ağalarını bir yerə yığaraq güya kürd dövləti qurmaq planlarını hazırlayırmışlar. Lakin, qəfildən xain ermənilər kürd bəylərini atəşə tutub hamısını güllələyirlər. Ancaq onlardan biri bayırda olduğu üçün atına minib xalqı xəbərdar edir. Beləliklə kürdlər Türkiyədə ermənilərin kökünü kəsir. Əslində isə ermənilər kürd bəy və ağalarını öldürərək, onların türklər tərəfindən qətl edildiyini yayaraq, onsuz da aralarında olan münaqişəni qızışdıraraq iki müsəlmanı bir-birinə qarşı saldıraraq qırdırmaq istəyirdilər. Bu məsələləri yaxşı bilən İsmayıl ağa Sımko hər addımını ölçüb-biçib, düşünülmüş şəkildə atırdı. Necə deyərlər, suyu üfləyə-üfləyə içirdi.

Hətta, bir dəfə Sımkonun siyasətindən baş aça bilməyən bir kürd bəyi Sımkoya qarşı çıxır. Onu başa düşən Sımko ona deyir: "Mən səni yaxşı başa düşürəm, narahat olma. Ata-babalarımızın qanı ilə suvarılmış bu müqəddəs torpaqların üstündə nəinki erməni dövlətinin qurulmasını, heç onların ayaq basmalarını da istəmirəm. Səbrli ol, nəticəni görəcəksən".

İsmayıl ağa Sımko ilə Mar Şəmun arasında keçən görüşmələr haqqında tarixçi və tədqiqatçı Ələddin Səcadi bunları yazır:

"İsmayıl ağa Mar Şəmunu padşahlar üçün hazırlanan rəsmi qayda ilə qarşılayır. Mar Şəmun dini liderlərin geydiklərə allı-şallı geyimlər içində gələcəkdə bir xalqın rəhbəri olacaq adam kimi, çevrə mühafizələri ilə zərli dörd atlı bir faytona minərək, dördü rus olan və faytonda oturmuş vəziyyətdə üzləri qarşıya və yana baxan atlı yüksək rütbəli əsgərin ikisi Mar Şəmunun arxasında ayaq üstə gözləyirdi. Qılınc dəstəklərinə zümrüd və dəyərli mücəvhərlərlə bəzədilmiş qılıncları qınından çəkib əllərində tutmuşdular. Bu görkəm padşahlara yaraşan bir görkəm idi. Günəş şüaları düşəndə insan heyrət içində qalırdı . Mar Şəmun bu biçimdə Teymur ağanın qonaq evinə endi".

Mar Şəmun görüş yerinə çatan vaxt İsmayıl Ağa arxasında bir sıra adamla Konəşara gəldilər. Ancaq İsmayıl ağa daha qabaqcadan öz adamlarını Teymur ağanın imarətinə göndərmiş və evin əhatəsində özlərinə uyğun mövqe tutmuşlar.

Mar Şəmun oraya çatınca özü otağa keçib oturur və atlıları tam hazır bir vəziyyətdə eşikdə gözləyirdilər. Kəsrəvi bu haqda belə yazır:

"Bizim Mar Şəmun və Sımko görüşməsindən xəbərimiz yox idi. İsmayıl ağanın hadisə haqqında özünün söylədiyinə görə, Mar Şəmun "İndi Kürdüstan deyə adlandırılan bu ölkə bizim, bizim vətənimizmiş. Nə var ki, din Aləmi qarşı-qarşıya bizi bölmüş. İndi birləşməmiz gərəkdir. Ölkəmizi ələ keçirib birlikdə yaşamalıyıq. Ordumuzu birləşdirsək siz də bizimlə olursanız TƏBRİZİ olmaq bizim üçün çox asan olar". Çünki şimalda da rusların köməyi ilə Şaumyan və Mikoyanın rəhbərliyi altında Xəzərdən Qara dənizə, Diyarbəkirdən İran körfəzinə kimi bir federativ dövlət yaradacağıq.

Sımko Mar Şəmunun planını öyrəndikdən sonra gülümsəyərək ona "düşünərəm" - dedi. Mar Şəmunu yola salmaq üçün onunla birlikdə bayıra çıxır. Mar Şəmun faytona minən zaman silah səsi eşidilir. Bu səs istər Kürdüstanı, istərsə də Azərbaycanı ingilis rus havadarları olan erməni və assuri qırğınlarından qurtarır. Mar Şəmun yerə yıxılır. Şıkaki silahlı gücləri dörd bir yandan Tiqranın və Mar Şəmunun atlı silahlılarına atəş açır və 100-ə qədər seçmə adamlarını öldürürlər. İsmayıl ağa həmin gün Çariyə dönür. Ertəsi gün sübh tezdən assur və erməni orduları İsmayıl ağaya qarşı hücuma keçirlər. Ətraf kəndlərin əhalisini qətl edərək heç kimə aman vermirlər. İsmayıl ağa çətin bir qarşıdurmadan sonra Çariya şəhərindən çıxmaq məcburiyyətində qalır.

Mar Şəmunun öldürülməsindən sonra xalq, xüsusilə Səlmas və Urmiya ətrafındakı əhali erməni və assurilərin qanlı qırğınlarına hədəf oldu, çoxlu insan öldürüldü. Mar Şəmunla danışıqlara gedən zaman İsmayıl ağa Sımko Osmanlılardan və Təbrizdən yardım istəmişdi. Və o xəbərdar etmişdir ki, 25000 nizami orduya qarşı vuruşar lakin bu bir çox əhalinin kütləvi qırğınına səbəb ola bilər. İsmayıl ağa Sımkodan gözü qorxan şah imkan vermirdi ki, Azərbaycanda bir erkək quş da uçsun. Odur ki, Azərbaycandan heç bir yardım gəlmədi. Bir tərəfdən isə İran şahı o ərazilərdə bir erməni və assuri dövlətinin yaranmasının tərəfdarı idi. Ona görə erməni və assurilərə ingilislərin vasitəsilə yardım edirdi.

Amma İsmayıl ağa Sımko kürdlərdən ibarət silahlı dəstənin Türkiyədən yardım gəlməyinə inanırdı. Türkiyədən gələn əşirət qüvvələri və eləcə də İraq Kürdüstanından Şeyx Mahmud Bərzənçi qüvvələri gec də olsa köməyə gəldi, erməni və assuri ordularına ağır zərbələr vuraraq məğlubiyyətə uğratdılar. Ermənilər ingilis ordusuna sığınmaq üçün Sayınqalaya çəkildilər. Mukriyani kürdləri arasında bu il Çilo ili olaraq adlandırıldı. Mar Şəmunun öldürülməsindən sonra Rzayidə yaşayan (Urmiya) tarixi yazıçı və tədqiqatçı Əli Dehqaninin dediyinə görə ermənilər və assurilər 109 gün Urimya bolgəsində qətliyamlar etdilər. Uşaq, qadın, kişi demədən 140 min adamı öldürdülər. Kənd və qəsəbələri talan etdilər.

Yaxşı, Sımko heç bir səbəbi olmadan nə məqsədlə Mar Şəmunu öldürdü? Bu haqda müxtəlif fikirlər var. Bəzi tədqiqatçılar Sımkonun bu hərəkətini böyük səhv olaraq qiymətləndirdilər. Ancaq bir qism sənədlərə görə Sımko Rusiya və İngiltərənin dəstəyi ilə Mar Şəmunun belə böyük bir qüvvə ilə Kürdüstanın bu bölgəsində dövlət quracağına inanmışdır. Xüsusilə M.Şəmunun öldürülməsindən sonra liderliyə gətirilən Petros, Lozan konfransında Kürdüstanda assurilər üçün bir yerin təyin edilməsini istəyirdilər.Tipik Fələstində yəhudilərə yaradıldığı İsrail dövləti kimi.

İranın adlı-sanlı yazarı və şairi Məliküm-Şüarrayi Bahar "Siyasal Partilərin qısa tarixi" adlı kitabında belə yazır: "Lozan" konfransında erməni Petros Londonun dəstəyi ilə assur və keldanilərin ən köhnə millətlərindən olduqları, yurdlarının isə Mosuldan Osmanlı Kürdüstanından və İran Kürdüstanından Urmiyaya qədər olan ərazini onlara verilməsini, ayrıca özləri üçün bəlirli bir mərkəz və iqamətgahın verilməsini tələb edirdilər. Bununla birlikdə assurların ingiltərə və Rusiya üçün müxtəlif xidmətlər etdiklərinə və edəcəklərinə söz verirdilər. Türklərin yürütdükləri çabaların Mar Şəmunun öldürülməsində üzaq bir fikir yoxdur. Hər necə olursa-olsun Sımkonun bu planı ingiltərə və Rusiyanın Kürdüstanda bir assur - erməni dövləti qurmaq planını pozmuşdur. Cilo məsələsinin yatırılmasından sonra 1919 - cu ilin yazında Sımko bölgədəki otoritesini artırmaq məqsədilə planlarını hazırladı. Təbriz Urmiya yolunu öz himayəsi altına aldı. 1919-cu ilin sonlarında Sipahandari Azam Azərbaycana vali təyin edildi. Sipahsalar Ziya-ud Devlə adında birini Urmiya hakimi olaraq göndərilmişdir. O, Sımkoya qarşı dirənməyə və öz müdafiəsini əldə etməyə çalışdı.

**Araşdırdı: Tahir SÜLEYMAN**

535:1.QXD 25.06.2023 19:51 Page 6



# “Kürdüstan Bölgəsi ilə Azərbaycan Respublikası arasında əlaqələr yaradılmalıdır”











İllərdir İraq Federativ Respublikasının Kürdüstan Bölgəsi ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələri yaratmağa çalışan “Diplomat” qəzetinin təsisçi və baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə, İraq Federativ Respublikasının Kürdüstan Bölgəsinin Mədəniyyət Nazirinin müavini Doktor Salar Osman, xəstəxanalar üçün laboratorialar qurucusu həkim Loğman Həpözdəmir, jurnalist Zana Sezən “Respublika”, “Baki xəbər” qəzetlərinin qonağı olmuşlar.

Qonaqları çox səmimi qarşılayan “Respublika” qəzetinin rəhbəri, hörmətli Teymur Əhmədov və “Bakı xəbər ” qəzetinin redaktoru Aydın müəllim qonaqların gəlişinə çox böyük əhəmiyyət verdklərini və “Həuler-Bakı-Həuler” təyyarə reysinin açılmasının hər iki ölkə üçün böyük tarixi və mədəni əhəmiyyət kəsb etdiyini bildirdilər.

**-Bakıya nə vaxt gəlmisiniz?**

İyulun 10-dan Bakıdayıq, təyyarə limanından azərbaycan xalqının çox qonaqperver, mehriban olduqlarını gördük. Günlər gözlədiyimizdən də tez keçir. Sağlıq olsun, ayın 16-da vətənə qayıdacağıq.

**-Bakıya gəlişinizin məqsədi nədir?**

-Məqsədimiz Bakı ilə tanış olmaq, şəhərin görkəmli və tarixi yerlərini ziyarət etmək, Azərbaycandan aldığımız təəssüratları İraq və Kürdüstan medyasında yayımlamaqla gördüyümüz Azərbaycan həqiqətlərini oxuculara çatdirmaqdır. Həmçinin Doktor Salar Osman Azərbaycan Mədəniyyət Nazirliyi ilə, Kürdüstan Mədəniyyət Nazirliyi arasında qarşılıqlı mədəni əlaqələrin yaranmasını, təsisçi olduğu 24-min



tirajla nəşr olunan “Həuler” qəzeti ilə “Respublika”, “Bakı xəbər” və digər qəzetlərin qarşılıqlı əməkdaşlığının yaradılması istəyində olduğunu bildirdi.

Mətbuat vasitəsi ilə, Azərbaycanda baş verən



ictimai-siasi hadisələri olduğu kimi “Həuler” qəzetində yayımlamaq və İŞİD-lə qəhrəmancasına döyüşən Kürdüstan və Peşmərgələr haqqında məlumatları “Respublika” , “Bakı xəbər” və digər qəzetlərdə çap olunsun. Xalqlarımız arasında mədəni əlaqələrin yaranması bizimlə başlasın. İnanıram ki, tarixən sınanmış və qədim köklərlə biri birinə bağlanan kürd və azərbaycan xalqları arasında hər zaman qardaşlıq münasibət olub və bundan sonrada olacaqdır.

**-Azərbaycan Respublikası ile Kürdüstan Bölgəsi arasında hansı rəsmi bağlantıların olmasını istərdiniz?**

-Kürdüstan Bölgəsində 50-dən artıq ölkələrin konsulluqları rəsmi fəaliyyət gostərir başda ABŞ-nın və qonşumuz Türkiyə Respublikasının konsulluqları. Niyə Azərbaycan Respublikasının Bağdatda səfirliyi, Həulerdə konsulluğu olmasın?

“Diplomat” qəzetinin baş redaktoru Tahir Süleymanın söylədiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu ilin noyabrın 12-də Azərbaycan Respublikasının Bağdatda səfirliyinin açılması üçün cərəncam imzalayıb, çox maraqlıdır Cənab Prezidentin cərəncamı indiyə qədər nə üçün yerinə yetirilməyib?

İstərdik ki, Kürdüstan Bölgəsinin də başqa ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da konsulluğu və nümayəndəliyi açılsın. Çünki Kürdüstan Bölgəsi də Azərbaycan Res-

535:1.QXD 25.06.2023 19:51 Page 7



# “Kürdüstan Bölgəsi ilə Azərbaycan Respublikası arasında əlaqələr yaradılmalıdır”

publikası kimi neft-qaz ölkəsidir və biri birinə dəstək ola bilərlər.

Siz bilirsiniz ki, Kürdüstan Bölgəsində 180-200- minə yaxın türkmən xalqı yaşayır və Kürdüstan Bölgəsinin rəhbərliyi Kürdüstanda bütün azsaylı xalqlara milli mədəni haqqları verilibdir. Beləki bölgədə kampaq yaşayan xalqların öz dilində məktəbləri, radio və televiziyaları fəaliyyət göstərir. Hətta Kürdüstan Parlamentində hər millətin 5-nümayəndəsi millət vəkili seçilir və bir nazirlik onlara verilir.

İstərdik ki, Azərbaycan Respublikasında da Kürdüstan nümayəndəliyi açılsın, burda yaşayan kürd xalqına yer verilsin. Eşitdiyimizə görə Azərbaycanda Kürd Mədəmiyyət Mərkəzinin adı olsa da, oturmağa yerləri yoxdur. “Azərbaycan kürdlər” İctimaii Birliyi nədənsə təstəq edilməyib, Respublikada kürd dilində bircə “Diplomat” qəzeti fəaliyyət göstərsədə redaksiyası öz evində



yerləşir.

Bizdə mədəniyyət mərkəzlərinə hökumət tərəfindən yer verilir və müaliyələşdirilir. Türkmən dilində televiziya, radio bu gün də 24-saat fəaliyyətdədir.

İstərdik ki, Azərbaycandan Respublikasından Kürdüstan Bölgəsinə musiqi ansanbılları gəlsin, Kürdüstan bölgəsindən Azərbaycan Respublikasına festifallara folklor ansanbıllar dəvət olunsun, konsertlər verilsin.

Kürdüstan Bölgəsində Azərbaycan Respublikasındakı Neft Akade-



miyasının bir fakültəsi açılsın, ordan Neft Akademiyasına tələbələrin sevqiyatı olsun və əlaqələr getdikcə dərinləşsin.

Türkiyənin “İşıq” universiteti, dünyanın bir sıra universitetləri Kürdüstan Bölgəsində fəaliyyət gostərir, nə üçün Azərbaycan Respublikasının nümayəndəliyi olmasın?

Axı orda yaşayan türkmənlər özlərini Azərbaycanlı hesab edir, niyə Azərbaycan hökuməti öz soydaşlarına bu imkanları tanımasın?

Bu gün keçmiş sovet məkanından Rusiyanın, Ukrainanın, Belarusiyanın, Moldoviyanın, Qazaxistanın, Gürcüstanın, Ermənistanın konsulluqları Kürdüstan Bölgəsində fəaliyətdədir. Nə üçün tarixən biri birinə qaynayıb qarişmiş Azərbaycan Respublikası ilə Kürdüstan Bölgəsi arasıda rəsmi əlaqələr olmasın?

Məncə bu əlaqələr çoxdan yaranmalı idi, gecdə olsa artıq vaxt çatıb, bəlkə də bir az da keçib, bu iki qardaş xalqların əlaqələri mütləq yaranmalıdır.

**-Bakı təəssüratı haqqında nə deyə bilərsiniz?**

Təyyarə limanından başlayaraq insanların bizə qarşı xoş münasibəti, bizdə elə bir təəssürat oyatdı ki, sanki biz illərdir Azərbaycana gəlib gedən, azərbaycanlılarla hər zaman mehriban münasibətdə olmuşuq.

Öz adımdan, dostlarımın adından azərbaycan xalqına bizə qarşı doğma münasibət göstərdikləri üçün təşəkkür edirəm və azərbaycan xalqını Kürdüstan Bölgəsində, Həulerdə görmək ümidi ilə Bakıdan ayrılaraq azərbaycan xalqına uğurlar arzulayiram və bir daha qeyd edirəm, bu iki qardaş xalqların əlaqələri mütləq yaranmalıdır.

*Hazirladı*
*Tahir Süleyman*












**“Diplomat” qəzetini arxivindən**

# Kürd İmperatorluqları

Qutilərin varlığı çox qədimlərə uzanır. Bu günə qədər bilinən ilk Quti imperatoru Emnatum miladdan əvvəl 3100-cü illərdə yaşamışdır.

Lağas kralı Adadnari hələ miladdan əvvəl 2400-cü illərdə Karda xalqından söz etmişdir. Eyni fikri Ur (Our) kralı Kmil Sin də Kurde torapqlarından bəhs edərək təsdiqləmişdir. Hitit kralı I Şuppilulita m. ə 1370-ci ildə Qurde xalqından söz açmışdır. Daha sonralar Assur kitabələrində Kardaka yaylasından və Kurtie – Kurti xalqından bəhs olunmuşdur.

Assur kralı Tukulti İnor, Qutilərə «Kurdi» deyirdi (Bax: İhsan Nuri Paşa, səh-33).

Milladdan 900 il əvvəl yaşamış Assur kralı Adalnirari Kusi, Kuti, Subari orduları ilə vuruşduğunu qeyd edir. Bu kral öz kitabələrində Qutiləri «Kürdi» deyə adlandırıb.

Kürd xalqının tarixini incələyərkən araşdırmaçıların müxtəlif dəyərli əsərlərindən istifadə etdikləri İhsan Nuri Paşa bu haqda belə demişdir:

- Kürd əsilli olan Khaldi (Xaldi), Ararati. Subari, Nauri, Mitanni, Muşki və Kassit dövlətlərinin Qutilərdən ayrıldığını, yeni hamısının kökünün qutilərə dayandığını göstərən əsərlər var. Bunlardan biri m. ə 1280-1261-ci illərdə yaşamış Asur kralı I Salamanasar krallığından qalan kitablarda bunu yazır: «Bir ulduz kimi parlayan Quti xalqı yalnız çoxluğu ilə deyil, əzm, şiddət, dəhşət və yıxıçılıqları ilə tanınmaqdadır. Düşmənçilikləri mənə də qarşı sürüb getdi».

Kürd Quti dövlətinin dağılmasından təxminən 1000 il sonra yaşamış Assur kralı Salmanasar, beləcə Quti qollarından gələn və öz yerinə çatan yeni kürd xalqlarının və onların dövlətlərinin qutilərin soyu və övladları olaraq tanıtmaqdadır. Onlar üçün min illik bir zaman fasiləsindən sonra da yenə quti sözlərini işlətməkdədir.

Etdiyi müharibələrdən sonra kral Salmanasar bunları yazmışdır: «Ararat sərhədindən Tur Abidinə qədər bir ölkə içində Quti qanı su kimi axıdıldı, lakin məğlub olmalıdılar».

… Yuxarıda adları çəkilən coğrafi terminlərin yerləşdiyi bölgələrdə bu gün də kürd xalqı yaşamaqdadır. Tarixi Babil ölkəsini fəth etmək ilk dəfə qutilərə nəsib olmuşdur. Quti dövləti parçalandığında, onların qollarından biri olan Kassitlərin parlaq və güclü dövrləri 725-ci ilə çatan bir məmləkətin təməlini Babildə saldılar. Kürd xalqının məşaləsini Subarilər, Mitanilər, Khaldilər, Muşki və Nayri dövlətləri vasitəsilə Med imperatorluğuna qədər daşıyıb gətirdilər.

Qutilərin kürd xalqının atası olduqlarını isbat etmək üçün «Ön Asiya və Mesopotomiya» tarixini incələyən və araşdıran elm və tarixçi amilləri də bu həqiqəti araşdırmalarında dilə gətirmişlər. Bunun isbatı olaraq Pensilvaniya Univerisitetinin professorlarından Speizer «Mesopotomiyanın kökəni» adlı əsərində kürdlərin qutilərlə Zaqros hulibiləri ilə eyni irqdən olduqlarını yazır (B. Nikitin, cild I. səh 91. Diponot).

Osmanlı tarixçilərindən Əhməd Rəfik «Ümumi tarix» adlı əsərində və onunla birlikdə Əmin Zəki də «Kürd tarixi» adlı əsərində müxtəlif fakt və sübütlarla eyni fikri təsdiqləmişlər (Ehsan Nuri Paşa, səh 38-40).

Tanınmış tarixçi Mucerson qutilərdən gələn Naviri xalqının hakimiyyətinin sonunda Kurti deyilərək adlandırıldıqlarını göstərməkdədir ki, bu da qutilərin kürdlərin ataları olduqlarını sübut edir. Hətta doktor Kontinov da miladdan 4000 min əvvəl Mesopotomiya və Zaqros dağlarında yerləşən xalqların Quti və Kusi (Kassit) deyə adlandırdıqları və ari irqdən olduqlarını, Kürd xalqının bu torpaqlardan enib gəldiyini vurğulayır. İstər Mucersonun, istərsə də doktor Kontinovun dediklərini təsdiq etmək üçün «Kürd ədəbiyyatı tarixi» əsərini göstərmək istərdik (II hissəyə bax).

- Şərqşünas Draver «Kürdlər və Kürd tarixi» kitabında qutilərin və kardaların kürd xalqının ataları olduqları olduğunu yazır. Digər bir şərqşünas Rayks da eyni fikirdədir (İ. N. P. səh. 173). Kürd xalqının qədimliyi və kürdlərin antik dövrdən gələn bir xalq olduğunu türk alimləri tərəfindən yazılmış «İslam ensklopediyası» əsərinin 1089-cu səhifəsində bunlar qeyd edilmişdir. Miladdan təqribən 2000 il əvvəl II Şumer dövrünə aid daş yazısında, Thureau-Danqin (Revue d Assuriologie, v-99, VI, 67) bir Kardaka adına təsadüf edilir. Bu ölkə Driverin Van gölünün cənubunda göstərdiyi Su tayfasının yanında idi. Miladdan sonra 1071-ci ildə Malazgirddən Anadoluya girmiş türk xalqı ilə kürd xalqının heç bir qohumluğunun olmadığını Milli Təlim Nazirliyi tərəfindən nəşr edilmiş ensiklopediyada öz əksini tapmışdır. Adı bilinən Quti krallarından Losirab, Şərlək, İks, Huş, Anri, Danzir, Trikan ən başlıca krallardandırlar. Bunlardan Şərləkə Firdovsinin «Şahnamə» əsərində Siyamən, İkş, Huşaya isə Huşəng adlandırılmışlar.

Babil dövlətinin süqutundan sonra, sadəcə 125 il 40 günlük Babil hökmranlığı zamanı həmsərhəd olan Quti krallarının sayı 14 olduğunu İ. N. Paşanın adı keçən əsərindən öyrənirik. Bazil Nikitin də qutilərin Sarqon xənadanlığına son verdiklərini və eyni dövlətin miladdan öncə 2496 – cı ilə qədər hökmranlığının sürdüyünü yazır (B. Nikitin «Kürdlər» cild I, səh-31).

Özü Quti soyundan olan Louqal Oton (Louqan kralı) Erun kralı olaraq Quti kralı Trikanini məğlub etdi. Quti xalqı bu məğlubiyyətdən sonra bəyliklərə bölündü. Bu dağınıqlıq içindən Bitlis bölgəsindəki qutilər Kardaka adını aldılar. Bəxtiyari dağlarındakı və ətrafındakılar müstəqillik qazandılar. Ancaq tarixi baxıma görə, qutilərdən sonra bu ölkə xalqını yetişdirdiyi və tarixə damğasını vuran iki yeni türk dövləti meydana gəldi. Bunların parlaq və görkəmli dönəmi 725 il sürən kürd Kussi – Kassit dövləti ilə bu dövlətin yaşama müddətinin ortalarında yer alan və təqribən 175 illik bir yaşam sürən Böyük Kürd Mittani imperatorluğudur.

**Kürd Kassit – Kussi imperatorluğu**

Kürd Kassit - Kussi dövləti haqqında məlumat verərkən bu haqda da qabaqcadan bildirmək istəyirik ki, bu dövlətə Cəmşidin adı verilmişdir. Hətta Firdovsinin «Şahnamə» əsəri də Kassit - Kussi dövlətini kinayə ilə Cəmşidin milləti hesab edir.

Quti imperatorluğunun dağılmasından sonra quti xalqının yaratdığı bu dövlət siyasi hakimiyyətini m. ə 1891-1171 – ci illərdə sürdürmüşdür. Qərb tarixçiləri isə bu hakimiyyətin sonunu 1160-cı il olaraq göstərir (Mauriçe Meumao, «Le Monte antiqie» əsəri, Paris 1976. Səh-160 ).

Kürd sivilizasiyası bu dönəmdə insanlığa böyük mənfəət verdi. Sənət, mədəniyyət, ədəbiyyat, el sənətləri, heykəltəraşlıq, rəsm və ev əşyalarının formalaşdırılmasında Kürd Kussi dövləti, Mitani dövləti ilə birlikdə çağdaşları Hititlərə, Asurlara və fironların idarəçiliyində olan Misir ölkəsinə böyük ölçülərdə təsir etmişdir.

